# Bütün proseslər mərhələli şəkildə davam edir

## Dörd kəndin qaytarılması delimitasiya istiqamətində ən mühüm addımdır

**"Qazaxın dörd kəndinin geri qaytarılması, sərhəd dirəklərinin basdırılması delimitasiya və demarkasiya istiqamətində atılan ən ciddi addımlardan biridir. Bu proseslərdən sonra Azərbaycanın sərhəd qoşunları öz mövqelərini həmin ərazilərdə möhkəmləndiriblər".**



"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, sərhəd qoşunlarının öz mövqelərinə çıxması və orada dislokasiyası suverenliyin bərpası istiqamətində atılan uğurlu addımlardandır. Onun sözlərinə görə, artıq Azərbaycan sərhədlərini Dövlət Sərhəd Xidməti qoruyur və burada söhbət müharibə ərəfəsində olan qoşunlardan deyil, sərhədin qorunmasından gedir.

Deputat qeyd edib ki, Ermənistan daxilindəki revanşist qüvvələr bunun əleyhinə olsa da, məqsəd başqadır. "Revanşist qüvvələrin arxasında duran istər keçmiş hərbi xunta, istərsə də bir sıra havadar dövlətlər başa düşürlər ki, onlar nə vaxtsa törətdikləri cinayətlərə görə cavab verəcəklər. Növbəti mərhələ Zəngəzur dəhlizi və digər istiqamətlərdə müvafiq sənədlərə uyğun olaraq sərhədlərin bərpa edilməsi, kommunikasiyaların açılmasıdır. Bu istiqamətdə Azərbaycan dövlətinin apardığı daxili və xarici siyasət müstəqildir. Heç kim buna qarışa bilməz. Düzdür, bununla bağlı ciddi cəhdlər var, lakin Azərbaycan mərhələli şəkildə qarşıya qoyulan bütün məqsədlərinə çatır", - deyə o əlavə edib.

A.Nağıyev xatırladıb ki, Prezident İlham Əliyevin Xocalıda sakinlərlə görüş vaxtı verdiyi mesaj bir daha göstərdi ki, Azərbaycanın baş qaldıracaq istənilən təxribata cavab verməyə haqqı, hüququ və hər cür imkanı, gücü var. Buna görə də Ermənistan başa düşməlidir ki, sülhün bərqərar olması, regionda sabitliyin yaranması dünyada olan müharibə ocaqlarından birinin sönməsinə xidmət edəcək. Yəni bu, çox ciddi məsələdir.

Deputat vurğulayıb ki, kommunikasiyaların açılması da mütləq şəkildə həllini tapmalıdır: "Bu gün hərbi birləşmələrimiz də, sərhəd qoşunlarımız da, xüsusi xidmət orqanlarımız da birmənalı şəkildə dövlət və dövlətçiliyin qorunması istiqamətində çox mühüm addımlar atırlar. Digər məsələ beynəlxalq səviyyədə görüşlərin keçirilməsidir və Ermənistanın baş nazirinin də bildirdiyi kimi, COP29-a qədər və yaxud o ərəfədə sülh müqaviləsinin imzalanması mümkündür. Sadəcə olaraq, onlar öz konstitusiyalarına dəyişiklik edib Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, istər kilsə, istərsə də separatçıların Ermənistanda nümayəndəliyinin ləğvi istiqamətində addımlar atmalıdırlar".

A.Nağıyev yekunda bir daha bildirib ki, əsas məsələ sərhədlərimizin tam şəkildə bərpası və ərazilərimizin nəzarətə götürülməsidir ki, bunu da dövlətimiz bacarır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 31 may, № 113.- S.12.